Dadaşova Şəfa Elman qızı



# TÜRKİYƏ - AZƏRBAYCAN İQTİSADİ ƏLAQƏLƏRİNİN TÜRKİYƏNİN ONLAYN MEDİASINDA İŞİQLANDIRILMASI

1991-ci il 18 oktyabr tarixində Azərbaycan Dövlət Müstəqilliyini elan etdikdən sonra, noyabrın 9-u Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlət məhz Türkiyə Cümhuriyyəti oldu. İlk diplomatik münasibətlər 1992-ci ilin 14 yanvarından etibarən qurulmağa başladı və bu münasibətlərin inkişaf etdirilməsi üçün müxtəlif səpkilərdə müqavilələr imzalandı. Həmin ilin 2 noyabr tarixində Türkiyə və Azərbaycan tərəflərinin imzaladığı "İqtisadi Əməkdaşlıq Sazişi" iki dövlət arasında iqtisadi əlaqələrin təməlini qurdu. Bununla da Azərbaycanla Türkiyə arasında qurulan dostluq və qardaşlıq münasibətləri iqtisadi sahədə də özünü göstərdi. Hələ SSRİ dövründə, keçmiş ittifaqın mənafeyinə uyğun olaraq bu iqtisadi əlaqələr zəif də olsa, mövcud olmuşdur. Lakin İttifaqın dağılması ilə bura daxil olan hər bir ölkənin dünya ölkələri ilə müstəqil iqtisadi əlaqələrinin qurulması üçün münbit şərait yarandı.

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra, Türkiyə Cümhuriyyəti onun dünya iqtisadi bazarına qoşulmasında əsas müttəfiqi olmuşdur. Strateji baxımdan əlverişli şəraitdə yerləşsə də, Azərbaycan açıq dənizlərə birbaşa çıxışı olmayan quru dövlətdir. Belə ki, müstəqilliyin ilk illərində, Türkiyə istisna olmaqla regionun bütün dövlətləri ilə gərgin dövlətlərarası münasibətin olması səbəbiylə iqtisadi blokadaya düşmüşdür. (1, s. 300-310)

Azərbaycan və Türkiyə arasında yaranan iqtisadi əlaqələr müxtəlif sahələri əhatə edir. 1996-cı ildə iki ölkə arasında hərbi, texniki və elm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalanmışdır.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi münasibətlər günü-gündən daha çox inkişaf etməkdədir. Hər iki dövlət arasındakı bu əlaqələr çox ölçülü və strateji səviyyədə əhəmiyyət kəsb edir. Dövlət rəsmiləri tərəfindən yüksək səviyyəli qarşılıqlı səfərlər, sıx əlaqələr, bu münasibətlərin inkişaf etməsində təmannasız rol oynayır. Dünya müstəvisində Türkiyə ərazicə Yaxın Şərqdə yerləşən bir Asiya ölkəsi olsa da, iqtisadi-siyasi cəhətdən bir Avropa ölkəsi hesab olunur.

Zaman keçdikcə iki ölkə arasındakı əməkdaşlıq həm kəmiyyət, həm də keyfiyyət baxımından böyüyür və sturuktur baxımından daha da geniş tərkibə malik olur. Eyni zamanda Azərbaycan regionda həyata keçirilən qlobal iqtisadi layihələrin gerçəkləşməsində Türkiyənin yaxından iştirakına daim xüsusi diqqət yetirir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft xəttinin və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarı başlaması ilə iki ölkə arasındakı iqtisadi əlaqələrin daha da güclənməsi buna bariz nümunədir. İqtisadi əlaqələrin güclənməsi isə nəticə etibarı ilə bu ölkələrin hərtərəfli tərəfdaşlığının daha da möhkəmlənməsini təmin edir. Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti layihəsi Azərbaycan və Türkiyə arasında siyasi, iqtisadi, eyni zamanda strateji əlaqələrin möhkəmlənməsində böyük əhəmiyyət daşıyır.

BTQ regionun ən böyük nəqliyyat dəhlizi olan dəmiryolu xəttinin tikintisinə 2005-ci ildə başlanması nəzərdə tutulsa da, həmin dövrdə maliyyə mənbələrinin olmamasına görə 2007-ci il, noyabr 21-də Gürcüstanın Marabda kəndində hər üç ölkənin prezidentlərinin iştirakı ilə təməli qoyulub. Bakı-Tibilisi-Qars dəmir yolu layihəsi regionda sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verməklə yanaşı, xalqlarımızın rifah halının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyətə malikdir. Bu layihə Azərbaycanın beynəlxalq enerji və nəqliyyat dəhlizi ölkəsi olaraq, yüksək potensialını göstərməklə yanaşı, ümumən regionda əməkdaşlığın genişlənməsi, ölkəmizin regionda ən böyük iqtisadi potensiala, gücə və həmin layihələrin reallaşmasını diktə etmək imkanına sahib olması deməkdir. Bakı-Tbilisi-Qars dəmir yolu tarixi və strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından böyük əhəmiyyət kəsb edir (2)

Azərbaycan və Türkiyə arasında olan iqtisadi əlaqələr hər iki dövlətin mediasında geniş şəkildə işıqlandırılır. Burada onlayn medianın rolunu xüsusi qiymətləndirmək lazımdır. Xüsusilə BTQ layihəsi haqda olan xəbərlər və analitik yazılar bu məsələyə nə qədər ciddi yanaşıldığından xəbər verir. Azərbaycan Dövlət İnformasiya agentliyi "azertag.az", "Azərbaycan" qəzetinin onlayn versiyası "azerbaijan-news.az", "modern.az", "Xalq qəzeti"nin onlayn versiyası "xalqqazeti.com" və.s bir çox saytlarda bu mövzu ilə bağlı xəbər, reportaj, müsahibə və digər yazı nümunələrinə rast gəlmək mümkündür. Eyni zamanda Türkiyənin bir çox saytlarında Azərbaycan Türkiyə iqtisadi əlaqələri, xüsusilə də BTQ ilə bağlı xəbərlər geniş şəkildə analitik təhlillərlə verilmişdir. Bu saytlar içərisində "hurriyet.com" xüsusi seçilir. "Hürriyət" qəzetinin saytında Yalçın Bayer, Faruk Bildirici, Vahap Munyar kimi köşə yazarları öz analitik məqalələrində BTQ layihəsinə müxtəlif aspektlərdən yanaşaraq təhlil ediblər.

Vahap Munyar 2017-ci il oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında Bakı-Tibilisi-Qars dəmir yolunun açılışı ilə bağlı məqaləsində , bu böyük tarixi hadisəni belə qiymətləndirir: "Mədəniyyətlər birləşəcək, xəttin keçdiyi ölkələr qazanacaq". Yazar həmçinin qeyd edir: "İlk vaxtlar bu layihənin reallaşmasına inanmayanlar Azərbaycan və Gürcüstan tərəflərinin qəbul etməyəcəyini düşünürdülər. Lakin Türkiyənin baş naziri Binəli Yıldırım prezident R.T.Ərdoğanın dəstəyi ilə digər iki dövlətin razılığını aldı və bu gün artıq layihə başa çatdı" (7).

Jurnalist Yalçın Bayer Hürriyyət qəzetində yayımlanan "Bakı-Tiblisi-Qars layihəsinin arxa cəbhədəki qəhrəmanları" məqaləsində müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı problemlər və Türkiyə tərəfinin göstərdiyi köməklik yer alıb. Xüsusilə Naxçıvan bölgəsinin düşdüyü blokada, bu vəziyyətdən çıxış yolunda Türkiyənin atdığı addımlar öz əksini tapıb. Müəllif layihənin tarixi haqqında qısa məlumat verərək onu Türkiyənin ən yaxşı strateji yatırımı olaraq qiymətləndirir və buna görə Türkiyə iqtidarını və əməyi keçən hər kəsi təbrik edir.

Türkiyənin "trthaber.com", "cnnturk.com", "sabah.com", "milliyet.com", "sozcu.com", "gazetevatan.com", "yenicaggazetesi.com", "sputniknews.com", "haberturk.com", "ntv.com.tr", "cumhuriyyet.com", "haberler.com", "sanalbasin.com", "yurtgazetesi.com.tr", "habersitesi.com", "kanal5.com.tr" "aydinlik.com.tr", "t24.com.tr", "timeturk.com", "gercekgundem.com", "internethaber.com" agentlikləri və digər media orqanları da

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılış mərasimi ilə bağlı müxtəlif sərlövhəli xəbərlərə geniş yer verib, səslənən fikirləri şərh ediblər.

Nüfuzlu "gunes.com" saytında "Demir İpekyolu ekonomiyi uçuracak" başlıqlı məqalədə qeyd edilir ki, "Təməli 2007-ci ildə Gürcüstanda, 2008-ci ildə Qarsda atılan Bakı-Tiblisi-Qars dəmir yolu tək regional deyil, eləcə də başqa ölkələrdən yük və sərnişin daşınmasını nəzərdə tutur. Bu dəmir yolu xətti ilə Qazaxıstan və Türkmənistandan yüklər daşınacaq". Məqalədə Qars Sənaye Məhəlləsinin rəhbəri Namik Akçanın da fikirlərinə yer verilib. O, layihənin bölgə üçün iqtisadi, mədəni və turizm sahəsində önəmli rol oynaya biləcəyini qeyd edib (17).

2010-cu ilin oktyabrında "Sabah.com" saytında yayımlanan "Bakü-Tiflis-Kars Demiryolunda ilk resmi sefer bugün" başlıqlı yazıda qeyd edilir ki, dəmir yolu Bakıdan Qarsa yük qatarının yola düşməsi ilə işə salınacaq. Məqalədə Türkiyə prezidenti Rəcəb Tayib Ərdoğanın fikirləri də yer alıb: "Türkiyə, Azərbaycan və Gürcüstan qədər regionumuz üçün də strateji əhəmiyyətə malik olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttində ilk qatar yola düşür. Bununla artıq Londondan Çinə qədər Orta Dəhliz vasitəsilə birbaşa dəmir yolu əlaqəsi yaradıldığını da elan etmiş oluruq. Hazırda Cənub dəhlizində və Şimal dəhlizində dəniz də daxil olmaqla Çindən İngiltərə, Fransa, Almaniya kimi Avropa ölkələrinə yükdaşıma müddəti təxminən 45-62 gündür. Eyni yük BTQ-nin istifadəyə başlaması ilə Orta Dəhliz vasitəsilə 12-15 gün arasında Avropa İttifaqı (Aİ) ölkələrinə çatacaq. Başqa sözlə, Çin tərəfindən Aİ-yə göndərilən yüklər BTQ xətti ilə birlikdə əvvəlki dövrdəki müddətin dörddə biri qədər vaxt ərzində təyinat yerinə çatmış olacaq". Həmçinin "sabah.com" saytı BTQ-nin açılış mərasimini oxuculara "Üç ölkə, tək ürək, ortaq nailiyyət" başlıqlı xəbərlə çatdırmışdır(15).

"Bloomberght.com" saytında Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimin müsahibəsi yer alıb. "Bakü-Tiflis-Kars demiryolu Pekin ile Londra'yı bağlayacak" sərlövhəli yazıda səfir dəmir yolu layihəsinin əhəmiyyətindən söz açaraq bildirir "bu xətt tək Azərbaycan və Türkiyəni deyil, Pekindən Londona qədər böyük ərazini qısa yolla bir-birinə birləşdirmiş olacaq" (14).

"Trtavaz.com.tr" saytının "Azerbaycan Cumhurbaşkanı Aliyev: "Bakü-Tiflis-Kars demiryolu dünya için de önemli bir proje" başlıqlı məqaləsində isə prezident İlham Əliyevin "Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirəcək" fikri yer alıb (12).

"Aydınlık.com.tr" xəbər saytı isə BTQ-nin açılışı ilə bağlı "Bakü-Tiflis-Kars dəmiryolu xətti açıldı" adlı xəbərdə yazır: "Bakı-Tblisi-Qars dəmir yolunun "İrəli İpək Yolu" adlı ilk rəsmi səfəri bu gün keçirilir. İlk qatar, Bakıdan Qarsa yola çıxır və ilk sərnişinləri də hər iki dövlətin prezidentləri R.T.Ərdoğan və İ.Əliyev olub. Çindən gələn yük orta dəhliz üzərindən 12-15 gündə Avropa ölkələrinə çatacaqdır (13).

"Yenisoz.com.tr" saytında R.T.Ərdoğanın "Bakı-Tblisi-Qars" kəmərinin açılışında etdiyi çıxışı yer alır: "Bakü-Tiflis-Kars demiryolu hattı kararlılığımızın eseri" (Bakı –Tiblisi- Qars kəməri qətiyyətimizin əsəridir) sərlövhəli xəbər başlığı ilə verilən xəbərdə Bakı-Tiblisi-Qars dəmiryolu layihəsinin, 1 milyon sərnişin və 6,5 milyon ton yük daşıma xüsusiyyətinə malik olduğunu bildirilir (11).

Türkiyə və Azərbaycan arasında olan iqtisadi əlaqələrin strateji və müasir əhəmiyyəti təkcə hər iki dövlətin media qurumlarının deyil, dünya mediasının da diqqətini çəkmişdir. Almaniyanın "Die Welt" saytında dərc edilən "Azərbaycanın gizlənmiş sərvətləri" sərlövhəli məqaləsində deyilir: "Sovet İttifaqının süqutundan sonra Azərbaycan təcrid olunmuş vəziyyətə düşdü. Ermənistan Azərbaycan ərazisinin 20% -ni işğal etdi. Lakin Bakı-Tblisi-Ceyhan neft və Bakı-Tblisi-Ərzurum qaz kəmərlərinin çəkilişi ilə Azərbaycan təcrid vəziyyətindən çıxdı. Azərbaycanın öz qazını alternativ yollarla Avropaya nəql etmək marağı, bu istiqamətdə Avropa İttifaqının (Aİ) da marağı ilə üst-üstə düşür" (8).

Yaponiyanın ümummili teleradioyayım korparasiyası NHK-nın(Nippon Hoso Kyokay) "Asiyadan Seçmələr" proqramı çərçivəsində "Xəzər dənizi sahilində yerləşən təbii ehtiyatlar ölkəsi-Azərbaycan" adlı verilişində şərhçi İçiyo İşikava ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycana etdiyi səfərlərdən əldə etdiyi məlumatlar əsasında ölkənin enerji siyasəti barədə geniş məlumat verib. "Əsrin müqaviləsi" nəticəsində reallaşan Bakı-Tiblisi-Ceyhan əsas ixrac boru kəmərindən, bu layihənin Xəzərin təbii ehtiyatlarının Avropa bazarına nəqlində mühüm rolundan danışıb. Bildirib ki, təbii ehtiyatların şaxələndirilmiş nəqli sayəsində hasilatın artırılması Azərbaycanın böyük mənfəət əldə etməsinə və görünməmiş inkişafına təkan verir. Ermənistan ilə müharibə vəziyyətində olmasına baxmayaraq ölkə sürətlə inkişaf edir" (9).

"Chinadaily" saytında dərc edilən "Azerbaijan forms a key link in the Silk Road chain" (Azərbaycan İpək yolu zəncirində açar rolunu oynayır) başlıqlı məqalədə "Avropa və Asiya ölkələrini birləşdirən ipək yolunun üzərində yerləşən Azərbaycanın böyük strateji əhəmiyyətə malik olduğu bildirilir. "Bakı –Tiblisi –Qars" dəmiryolunu "Dəmir İpək Yolu" adlandırılır. Bakı-Tiblisi-Ceyhan" və "Bakı- Tiblisi –Ərzurum" boru xətləri Avropanın ehtiyaclarını ödəyən əsas boru xətləridir (10).

Bir sözlə, Türkiyənin onlayn mediası 1990-2018-ci illərdə Azərbaycanla Türkiyə arasındakı iqtisadi münasibətlər, baş tutan görüşlər, bağlanan müqavilələrə xəbər janrında geniş yer vermişdir. Eyni zamanda analitik məqalələr, tanınmış iqtisadçılardan alınanlar müsahibələr də çoxluq təşkil etmişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Babaoğlu H. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı, Çınar-Çap, 2010
2. Mikail Elnur Hasan, Tazegül Alper. Türkiye ile Azerbaycan Siyasi ve ekonomik ilişkileri. Bakı, IQ Kültür Sanat Yayıncılık, 2012
3. http://www.hurriyet.com.tr/gundem/baku-tbilisi-kars-railways-turkish-part-to-be-laid-on-july-24-9476366
4. https://www.sabah.com.tr/yasam/2017/11/03/baku-tiflis-kars-demiryolunda-ilk-tren-karsa-ulasti
5. https://www.yenisafak.com/ekonomi/baku-tiflis-kars-demiryolu-2-ay-sonra-aciliyor-2639835
6. http://www.mfa.gov.tr/azerbaycan-ekonomisi.tr.mfa
7. http://www.hurriyet.com.tr/yazarlar/vahap-munyar/baku-tiflis-kars-hattinda-fitili-ilk-yildirim-atesledi-40629516
8. https://www.welt.de

9. https://www3.nhk.or.jp/nhkworld/en/tv/
10. http://www.chinadaily.com.cn/newsrepublic/2017-01/22/content_28028833.htm
11. http://www.yenisoz.com.tr/baku-tiflis-kars-demiryolu-hatti-kararliligimizin-eseri-haber-25555
12. https://www.trtavaz.com.tr/haber/tur/avrasyadan/azerbaycan-cumhurbaskani-aliyev-baku-tiflis-kars-demiryolu-dunya-icin-de-onemli/5a573e8f01a30a0b6461a660
13. https://www.aydinlik.com.tr/stratejik-baku-tiflis-kars-demiryolu-hatti-acildi-dunya-ekim-2017-4
14. http://www.bloomberght.com/haberler/haber/2063940-baku-tiflis-kars-demiryolu-pekin-ile-londra-yi-baglayacak
15. https://www.sabah.com.tr/ekonomi/2017/10/30/baku-tiflis-kars-demiryolunda-ilk-resmi-sefer-bugun
16. http://www.hurriyet.com.tr/yazarlar/yalcin-bayer/baku-tiflis-kars-projesinin-gerideki-kahramanlari-kimdir-40630828
17. http://www.gunes.com/ekonomi/demir-ipekyolu-ekonomiyi-ucuracak-827669

**Xülasə**

Məqalədə Azərbaycanın Dövlət Müstəqilliyini elan etdikdən sonra Türkiyə ilə yaranan münasibətlər və qurulan iqtisadi əlaqələrdən danışılır. Eyni zamanda hər iki dövlət arasında yaranan iqtisadi əlaqələrin Türkiyə onlayn mediası tərəfindən işıqlandırılması müxtəlif nümunələr əsasında öz əksini tapıb.

***Açar sözlər: Layihə, onlayn media, iqtisadiyyat, sayt***

**Резюме**

В статье рассматриваются отношения с Турцией и сложившиеся экономические отношения после провозглашения государственной независимости Азербайджана. В то же время, освещение в СМИ экономических отношений между двумя странами было отражено на различных примерах.

***Ключевые слова: Проект, онлайн СМИ, экономика, сайт***

**Resume**

The article deals with the relations with Turkey and the established economic relations after the declaration of the State Independence of Azerbaijan. At the same time, the online media coverage of economic relations between two countries has been reflected on various examples.

***Key words: Project, online media, economy, site***

***RƏYÇİ: dos.E.Əliyeva***